# Elm və təhsil naziri Özbəkistanda səfərdə olub

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti UNESCO-nun təşkilatçılığı ilə Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən "Erkən uşaqlıq dövründə qayğı və təhsil" beynəlxalq konfransında iştirak etmək məqsədilə bu ölkədə səfərdə olub.

Müxtəlif ölkələrdən 1500-dən çox iştirakçının cəlb olunduğu tədbirin məqsədi məktəbəqədər təhsilin əhatəliliyinin təmin edilməsi və erkən uşaqlıq təhsilinin inkişafı istiqamətində təşkilata üzv dövlətlərin təcrübə mübadiləsinin aparılmasıdır.

Konfrans çərçivəsində elm və təhsil naziri Emin Əmrullayevin yüksək səviyyəli sessiyada iştirak edib, UNESCO rəhbərliyi, eləcə də Özbəkistanın təhsil siyasətini həyata keçirən müvafiq dövlət qurumları ilə ikitərəfli görüşlər keçirib.




## Özbəkistanın xalq təhsili naziri ilə görüş

Özbəkistanda səfərdə olan elm və təhsil naziri Emin Əmrullayev bu ölkənin xalq təhsili naziri Baxtiyar Saidov ilə görüşüb.

Görüş zamanı ümumi təhsil sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, şagird və müəllim mübadilə proqramlarının həyata keçirilməsi, iki ölkənin tarixi və ortaq dəyərləri ilə əlaqədar məktəblilər arasında təqdimatların təşkili, o cümlədən qardaşlaşmış məktəblərin sayının artırılması məsələləri müzakirə olunub.

Elm və təhsil naziri ölkəmizin son illər ərzində təhsil sahəsində əldə etdiyi uğurlar, eləcə də STEAM və rəqəmsal bacarıqlar, şagirdlərin beynəlxalq qiymətləndirmə proqramlarında (PISA, PIRLS, TIMSS) iştirakı ilə bağlı Azərbaycanın təcrübəsini bölüşüb.

Nazir 5-9 dekabr 2022-ci il tarixlərində ölkəmizdə keçirilməsi nəzərdə tutulan STEAM festivalında Özbəkistan məktəblilərinin iştirakı ilə əlaqədar məmnunluğunu ifadə edib.

Eyni zamanda Emin Əmrullayev işğaldan azad olunmuş Füzuli rayonunda Özbəkistan hökumətinin məktəb tikintisi ilə bağlı təşəbbüsünə görə təşəkkürünü bildirib.



## Emin Əmrullayev beynəlxalq konfransda çıxış edib

Elm və təhsil naziri Emin Əmrullayev Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən "Erkən uşaqlıq dövründə qayğı və təhsil" beynəlxalq konfransı çərçivəsində təşkil olunmuş siyasət, idarəetmə və maliyyə üzrə yüksək səviyyəli sessiyada çıxış edib.

Nazir çıxışında Azərbaycanda məktəbəqədər təhsilin əhatəliliyinin və keyfiyyətinin artırılması istiqamətində görülən işlər və əldə olunan uğurlar barədə tədbir iştirakçılarına məlumat verib. Emin Əmrullayev qeyd olunan sahələr üzrə beynəlxalq əməkdaşlığın, eləcə də təcrübə mübadiləsinin vacibliyini vurğulayıb.



## Elm və təhsil naziri görüşlər keçirib

Elm və təhsil naziri Emin Əmrullayev Özbəkistana səfəri çərçivəsində bu ölkənin ali və orta ixtisas təhsili naziri Abdukodir Toşkulov ilə görüşüb. Tərəflər ali və orta ixtisas təhsili sahəsində təcrübə mübadiləsi, təhsil müəssisələrinin birbaşa əməkdaşlığı və digər məsələlər ətrafında müzakirələr aparıblar.

Emin Əmrullayev həmçinin "Erkən uşaqlıq dövründə qayğı və təhsil" beynəlxalq konfransı çərçivəsində UNICEF-in Mərkəzi Asiya və Avropa üzrə regional direktoru Afşan Xan ilə görüşüb.

Görüş zamanı nazir "İcma əsaslı məktəbəqədər təhsilin inkişafı" layihəsinin uğurla icra olunduğunu bildirib. Eyni zamanda tərəflər qarşılıqlı maraq kəsb edən digər sahələr üzrə əməkdaşlıq perspektivlərini müzakirə ediblər.



## Səfər başa çatıb

Elm və təhsil naziri Emin Əmrullayev Özbəkistana səfəri çərçivəsində Özbəkistan Respublikasının məktəbəqədər təhsil naziri Aqrippina Şin ilə görüşüb. Tərəflər məktəbəqədər təhsil sahəsi üzrə təcrübə mübadiləsi və mümkün əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparıblar.

Nazir "Erkən uşaqlıq dövründə qayğı və təhsil" beynəlxalq konfransı çərçivəsində Dünya Bankının erkən uşaqlıq inkişafı üzrə qlobal rəhbəri Amanda Devercelli ilə görüşüb. Görüşdə təhsil sahəsində ikitərəfli əməkdaşlığın gələcək inkişaf perspektivləri müzakirə edilib.

Qeyd edək ki, Emin Əmrullayevin Özbəkistana 14-16 noyabr tarixlərində olan səfəri başa çatıb.

